# "Qisas" əməliyyatı ciddi xəbərdarlıqdır

***Vətən müharibəsində möhtəşəm tarixi qələbədən sonra Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan sülh və təhlükəsizliyin təmin edilməsi yönümündə yeni reallıqlar yaradıb. Şanlı vətən müharibəsində ermənilər elə bir dərs aldılar ki, onlar tarix boyu bu məğlubiyyəti unuda bilməyəcəklər. Artıq beynəlxalq aləm yaxşı bilir ki, 44 günlük müharibəyə qədərki dövrdə olduğu kimi, yeni reallıqlarda da Ermənistanın əsassız iddialarına yer yoxdur və heç vaxt da olmayacaq. Amma görünən odur ki, Ermənistan 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatda əks olunmuş və sonrakı bəyanatlarla bir daha möhkəmləndirilmiş öhdəlikləri, sərhədlərin demarkasiyası və delimitasiyası, sülh müqaviləsinə dair Avropa İttifaqının vasitəçiliyi ilə əldə olunmuş razılaşmaları yerinə yetirmək məcburiyyətindədir. Aydın görünür ki, müharibədən sonrakı dövrdə Azərbaycanın yürütdüyü siyasət, münasibətlərin normallaşdırılması, təhlükəsizliyin əldə olunması ilə bağlı mövqeyi qətidir və Bakı qarşı tərəfdən də eyni mövqenin ortaya qoyulmasını gözləyir. Əks təqdirdə, Ermənistanın Azərbaycanın "Dəmir yumruğ"unun zərbəsini bir daha hiss etməsi qaçılmaz olacaq. Odur ki, 44 günlük müharibədən nəticə çıxarmaması Ermənistana yenidən baha başa gələ bilər.***

"Bu ilin altı ayında Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr yoxdur. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq əfsuslar olsun ki, Ermənistan məcburən üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmir". Bu fikirləri Prezident İlham Əliyev ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında bildirib. Azərbaycan Respublikası dəfələrlə bildirmişdir ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərk-silah edilməsi mütləq şəkildə labüddür.

Sülhməramlıların mandata uyğun olaraq fəaliyyət göstərməməsi səbəbindən ermənilərin qanunsuz silahlı dəstələri yaranır, Ermənistan hərbçiləri Azərbaycan ərazisində qalırlar. Biri qanunsuz hərbi birləşmə, o biri isə işğalçı olduğu üçün Azərbaycan Ordusunun onların hər ikisinə qarşı hərbi əməliyyatlar keçirmək hüququ var. Bu baxımdan, onlar Azərbaycan torpaqlarında qaldıqları müddətdə "Qisas" əməliyyatına oxşar tədbirlərin keçiriləcəyi istisna edilmir. Avqustun 3-də Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən intensiv atəşə tutulub. Nəticədə əsgər Kazımov Anar Rüstəm oğlu aldığı güllə yarasından şəhid olub. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər də nəzarətə götürülüb. İstənilən dövlətin öz ərazisində hərbi əməliyyat keçirməsi, yaxud cinayətkarları zərərsizləşdirməsi onun müstəsna hüququdur. Bu, beynəlxalq hüquqda və konvensiyalarda da təsbit edilib. Çünki belə olmasa həmin cinayətkarlar həm regional, həm də qlobal miqyasda təhlükə mənbəyinə çevrilə bilər. Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks-cavab tədbirləri daha da sarsıdıcı olacaq.

"Ermənistan tərəfindən növbəti hərbi təxribat törədilib və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş bu təxribat nəticəsində hərbi qulluqçumuz həlak olub", - deyə Prezident İlham Əliyev Fransa dövlət başçısı Emmanuel Makronla telefon danışığı zamanı bildirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri bu təxribatın qarşısını alıb, lazımi cavab tədbirləri görüb və baş vermiş gərginliyə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür. Üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir. İşlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur.

İnsident böyük rezonans doğurub. Bununla bağlı kütləvi informasiya vasitələrində müxtəlif səviyyəli qurumların münasibətləri yer alır. Qeyd olunur ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel son eskalasiya ilə əlaqədar Ermənistan və Azərbaycan liderləri ilə sıx təmasdadır. Şarl Mişelin komandası və Aİ-nin xüsusi nümayəndəsi Toivo Klaar dialoq yolu ilə dərhal gərginliyin azaldılması və gündəmdə olan bütün məsələlər üzrə irəliləyiş əldə etmək üçün son günlər hər iki tərəflə sıx əlaqədə olub. ABŞ dövlət katibi Etnoni Blinken və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu telefon danışığında digər məsələlərlə yanaşı, Qarabağdakı son vəziyyəti müzakirə ediblər. Bu barədə ABŞ Dövlət Departamentinin saytında verilən məlumatda qeyd olunur ki, danışıq zamanı Blinken ABŞ-ın Azərbaycanla Ermənistan arasında dialoqun və regionda uzunmüddətli sülhün təmin olunması üçün öz həmfikirləri ilə qarşılıqlı fəaliyyətə hazır olduğunu bildirib. Vaşinqton məsələnin uzunmüddətli siyasi həllinə nail olmaqda maraqlıdır.




"Ermənistan tərəfinin bu təxribatlarının Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında bəyanatların kobud şəkildə pozulmasıdır və vasitəçilik səylərinə xələl gətirir". Bunu Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarla telefon danışığı zamanı bildirən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə zidd olaraq indiyə qədər Ermənistan silahlı qüvvələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığını və bunun yolverilməz olduğunu vurğulayıb. Ermənistan tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsinin bölgədə yaşanan gərginliyin əsas səbəbi olduğu diqqətə çatdırılıb.

Onu da qeyd edək ki, 10 noyabr sazişinə əsasən, erməni birləşmələri torpağlarımızı tərk etməli idi. Rusiya sülhməramlıları da üzərlərinə düşən öhdəlikləri yerinə yetirmədilər. Azərbaycan gec, ya da tez bu separatçıları torpaqlarımızdan çıxaracaq. Üçtərəfli Bəyanat əsasında Azərbaycan artıq sərhədlərin delimitasiyası, demarkasiyası və bütün kommunikasiyaların açılması məsələsini qaldırıb. O cümlədən, Ermənistan ərazisindən keçərək Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan ilə müstəqil əlaqələrin yaradılması da gündəlikdədir.

10 noyabr bəyanatı regionda kommunikasiyaların açılacağı və bunun sayəsində Ermənistanda iqtisadiyyatın canlanacağı ümidlərini doğurub. Ölkənin Baş naziri Nikol Paşinyan bəzi çıxışlarında regionda nəqliyyat kommunikasiyalarının açılmasının zəruriliyini vurğulayıb və bunun, xüsusilə Rusiya ilə əlaqələrə müsbət təsir göstərəcəyindən danışıb. Amma tərəflər arasında hələ də sülh razılaşması imzalanmayıb. Rəsmi Bakı bildirir ki, Ermənistan tərəfi üçtərəfli Bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdür. Bu bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir. Bölgədə sülh və sabitliyin təmin olunması, habelə münaqişə sonrası normallaşma üçün üçtərəfli bəyanatların tam icrası vacibdir. Azərbaycan öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir.

**M.MUSTAFAYEV,**
**"Respublika".**